# SÖNMƏYƏN İŞIĞIN HALƏSİNDƏ

Mənim əziz müəllimlərim həyatdan uzun ömür yaşamağın sirlərini mənimsəmiş Azər Hüseynovun "Kürədə bişmiş Dəmirçi", elmi hünər yolu bilən Qəzənfər Kazımovun "Heç kimə borcu olmayan professor Dəmirçizadə"... epitetli yazılarını əvvəllər "Kredo"da məmnuniyyətlə çap eləmişəm. Və Əbdüləzəl Dəmirçizadə kimi simaların unudulmaması məndə gələcəyə inam hissi doğurub. İnanmışam ki, toplumun içindən elə insanlar ayrılıb çıxır ki, onlar üçün həqiqət dünyanın bütün maddiyyatlarından üstün olur. İndi də tələbəlik çağlarımdan üzü bəri həm müəllimim, həm də tələbəlik dostum kimi yaddaşımda öz yerini qoruyub saxlayan Nizami Xudiyevin "Professor Əbdüləzəl Dəmirçizadə dünyası" yazısı məni təzədən həyatımın ötüb keçmiş əlçatmazlığına qaytardı. Professor N.Xudiyev müəlliminin və eyni zamanda ustadının portretini xüsusi bir qədirşünaslıq, elminə və şəxsiyyətinə heyranlıqla qələmə alıb. Sözün rəngləri ilə dilçilik elmimizin ustadına əlvan rəngli zaman xalısı toxuyub.

Əbdüləzəl Dəmirçizadə "Kim idi" sualına professor Nizami Xudiyev xatirələri, essevari düşüncələri və elmi mülahizələri ilə çox dəqiq cavab verib. Bu tipli yazıların əsas dəyəri ondadır ki, Dəmirçizadənin zamanından uzaqlaşmış yeni nəsil onun obrazını təkcə təsəvvür eləməsin, həm də kimliyini, təbiətini, mənəvi mühitini qavraya bilsin, onunla müsahib ola bilsin, onunla polemikaya girə bilsin. Yazı məni birinci növbədə elə bu cəhətlərinə görə cəlb elədi. Bir az da səmimiyyəti qədərincə ifadə eləmək istəsəm, deməliyəm ki, həm də könlümü ovladı.

Professor Nizami Xudiyevin yazısında zamanının və eləcə də, bu günün ustadının portreti üç istiqamətdə işlənilib: Dəmirçizadə elm adamı kimi; Dəmirçizadənin bədii ovqatı; və bir də ustad bir şəxsiyyət kimi, insan kimi xarakterizə olunub.

Birinci kursun sonlarına yaxınlaşırdıq. Müəllimimiz Quşdan Bağırov dedi ki, növbəti dəfə qonağımız olacaq. Özünüzə fikir verin, əyin-başınızı səliqəli geyinin, dərsə də yaxşı hazırlaşın. Professor dərsimizdə iştirak edəcək.

Müəllimlərimizin arasında professor olanlar var idi, ancaq orası yadımdadır ki, professor deyiləndə birinci yaddaşa gələn Əbdüləzəl Dəmirçizadə olurdu. Və biz səhv eləməmişdik. Çünki o vaxt ali məktəb auditoriyalarının az qala divarları da Ə.Dəmirçizadəyə etiram göstərirdi. Asta-asta yeriməyi, qıyıq gözlərinin altınca baxmağı, xoşu gələn məsələyə dodaqaltı qımışmağı... başqalarının uzun-uzadı izah elədiyini qısaca bir neçə kəlmə ilə anlatmağı bacaran bu elm fövqəlinsanının gəlməyini hamımız həyəcanla gözləyirdik. O vaxt gənc olan Nizami Xudiyevlə birgə dekanlıqdan çıxıb auditoriyaya tərəf gəldi. Biz də qapının ağzına yığışıb onun gəlişinə baxırdıq. Birdən Quşdan Bağırov necə oldusa, qəflətən yanımızda göründü. "Keçin, keçin içəri, professor gəlir"...

*(Davamı 16-cı səhifədə)*

# SÖNMƏYƏN İŞIĞIN HALƏSİNDƏ

*(Əvvəli 1-ci səhifədə)*

İndi də gözlərimin qabağında həmin mənzərəni canlandıranda, müəllim-tələbə qarışıq hər kəsin necə həyəcanlı olmağını təsəvvür elədikcə, necə qeyri-adi bir ustadın zamanında oxuduğumuzu qürurla xatırlayıram. Keçib ikinci cərgənin arxasında oturdu. Onu deyim ki, N.Xudiyev onu auditoriyaya ötürüb özü geri qayıtmışdı. Quşdan müəllim dərsə başladı. Mühazirəni bir qədər tez bitirdi. Bəlkə də, bu əvvəlcədən planlaşdırılmış bir quruluş idi. Sonra professor durub qabağa gəldi. Bir neçə kəlmə dilçilik elminin tarixi, ana dilinin təbiəti ilə bağlı suallar verdi. Az-çox fəal olan tələbələri də danışdırdı. Hər kəsin də cavabına görə bir növ qiymət verdi. Mənim cavabımdan sonra dedi ki; "yaxşı, aydın nitqin var". Professorun dilindən ünvanıma səslənən bu sözləri indi də ruhumun, varlığımın ən dəyərli qiyməti kimi yaddaşımda qoruyub saxlayıram.

Hər dəfə də hardasa Əbdüləzəl Dəmirçizadənin adını eşidəndə, yerimdən tərpənməsəm də özümdən asılı olmadan ruhumun hərəkəti ilə ayağa qalxıram. Varlığımın səssiz sükutu ilə onun adını salamlayıram. Amma əlbəttə, bunu başqaları yox, özüm görürəm, özüm eşidirəm.

Professor Nizami Xudiyevin bu sözlərini də sanki öz ruhumdan gələn səs kimi eşidirəm: "*...Dəmirçizadə adı mənə bir də ona görə əzizdir ki, digərlərinə nisbətən mənim ömür yolumda onun müəllim, alim, yol göstərən ustad kimi daha çox payı var. Onun professorluğundan, qayğıkeş, tələbkar müəllimliyindən mənim tələbəliyimdən başlanan doğmalıq və bu öyrənməyə can atan doğmalığın hərarəti ilə başlanan həyatımı bu gün Dəmirçizadə taleyinin - "Ədəbi dil tarixçisi" ömrünün davamı hesab edirəm. Məni ən çox sevindirən, qəlbimi qürur hissi ilə dolduran odur ki, ötüb keçən bütün bu illər ərzində həmin ömrü - unudulmaz ustadımın elm yolunu və onun yaratdığı, uzun müddət rəhbərlik etdiyi "Azərbaycan dilçiliyi" kafedrasının müdiri vəzifəsini indi mən davam etdirirəm*".

Varisliyin qırılmaması, davamlılığı, böyük yolun ötürücülük missiyası bütün hallarda inkişafı təsdiqləyir. Mənəvi yüksəlişin dönməzliyinə təminat təsiri bağışlayır. Bu gün professor N.Xudiyevin timsalında çoxları Ə.Dəmirçizadə ruhuna söykənişdən fəxrlə danışa bilər. Ə.Dəmirçizadə ruhunu yaşadanların hamısının halal haqqıdır bu. Düşünürəm ki, professor N.Xudiyevin fikrinin davamında səslənənlər də yetərincə səmimidir, doğrudur: "*1979-cu ildə professor bu dünyanı tərk edib, haqq dünyasına, əbədiyyətə qovuşdu. Türkologiya elmi və ədəbi ictimaiyyət nəhəng bir söz ustadını, fikir sahibini itirdi. Lakin onun dedikləri, yazdıqları dilçiliyin həmişə güvənc yeri olacaq. Ə.Dəmirçizadəyə və onun dünyasına həmişə müraciət olunacaq, ondan kömək istəniləcək, bu nurlu ziya çox qaranlıqlara işıq salacaq. Onun son dərəcə sanballı, müstəsna əhəmiyyətli elmi-nəzəri irsi dilçiliyimizin məhək daşlarından sayıla bilər. ...Şəkidə orta məktəbdə fəaliyyət göstərən zaman dilin tədrisi ilə bağlı üzləşdiyi problemlərin aradan qaldırılması yollarını düşünən Əbdüləzəl müəllimin mətbuatda ilk çıxışları elmə yeni nəfəsin gəldiyindən xəbər verirdi. Yaxşı ki, dünyada yaxşılar var. Bu yaxşılardan biri də görkəmli türkoloq Bəkir Çobanzadə olmuşdur. Tələbəlik illərində Ə.Dəmirçizadənin iti elmi fəhmini, duyumunu hiss etməsi, aspiranturaya gətirərək zəmanəmizin gələcək ən güclü dilçi alimlərindən birini yetişdirməsi ibrətamiz hadisə, nəsillərə örnək olan faktdır*". Professorun ustadı haqqında dediklərinə nəsə əlavə etməyə lüzum görmürəm.

Ancaq daha bir-iki kəlmə... Əvvəllər də demişəm, dilçilik elmimizin ilk sütunlarını yaratmış Bəkir Çobanzadə və həm də elə onun yaratdığı sütunlar Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Məmmədağa Şirəliyev, İsmayıl Əfəndiyev üçün dilçilik muzeyi yaradılmalı və eləcə də bu sütunlardan pərvəriş tapmış görkəmli dilçi alimlərimizin qalereyası da həmin muzeydə elmi varisliyin təminatı haqqında yeni nəsillərə əfsanəvi simalar haqqında tarix dərsi keçməlidir. Əlbəttə, o canlı simalar arasında Ə.Dəmirçizadənin inamla gələcəyə gedən alim obrazı da öndədir. Axı professor Nizami Xudiyev yaxşı deyir "yaddaşımızda beləcə əbədiyyətə dönüb, mifik bir qəhrəmana çevrilib Əbdüləzəl Dəmirçizadə. O, bu gün də köməyimizə çatır, əlimizdən tutur..."

...Sönməyən işığın haləsində olanlar bir-birini yaxşı görə bilir. Bu halədə təkcə zahirən yox, batinən də qaranlıqlar aydınlanır.

*Əli Rza XƏLƏFLİ*
*21.11.2018*

**Kredo.- 2018.- 22 noyabr.- S.16.**